# MƏN ONU HƏR ZAMAN YANIMDA HİSS EDİRƏM

***Azərbaycan ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi Kənan Vaqif oğlu Quliyevin (11 sentyabr 1992-ci il Naxçıvan Muxtar Respublikasınn Culfa şəhəri - 22 oktyabr 2022-ci il Qubadlı rayonu) həyat yoldaşı Aysel Quliyeva ilə müsahibə.***




*(Əvvəli ötən sayımızda)*

**- Şəhidimizin şəhadətindən əvvəl gələcəklə bağlı nəplanları var idi?**

-Kənan ailəcanlı biri idi. Onun gələcəklə bağlı çox gözəl planları var idi. Düzünü desəm, biz o planları birlikdə həyata keçirəcəkdik.Birlikdə qurduğumuz xəyallarımız, arzularımızçox idi. Azərbaycanımız bütöv olsun deyə bizim ailəmiz, birlikdə qurduğumuz planlarımız, arzularımız yarım qaldı. Kənanın ən böyük arzusu maşın almaq idi. Həmişə deyirdi ki, inşəAllah, bir gün mavi rəngdə maşınım olacaq. Şəhadətindənsonra Kənan yuxuma gəldi və o,eyni ilə arzuladığı rəngdə və markada olan maşını sürürdü. O, mənə dediki, cənnətdə istədiyim maşını aldım. Bax sürürəm, həmin maşınlabura gəldim. Kənan çox az, qısa bir müddət atalıq hissini daddı, yaşadı. Cəmi 1 həftə ömür sürən oğlumuz atasından bir il öncə dünyasını dəyişdi. Və həmişə biz arzu edirdik ki, sağlam, vətəni, xalqı, milləti, cəmiyyəti üçün xeyirli övladlarımız olsun. Kənan uşaqları çox sevərdi, onlara xüsusi diqqət, qayğı göstərərdi. Bu xarakterinə görə mən əmin idim ki, Kənan hamıya nümunə olacaq bir ata olacaqdı. Onunla birlikdə planını qurduğumuz digər arzularımızla birlikdə bu arzumuz da ürəyimizdə qaldı.

**- Həyat yoldaşınız Kənan Quliyevin şəhid olması xəbərini nə zaman, haradavə kimdən eşitdiniz?**

-Kənana həmişə deyirdim ki, birdən müharibəyə gedərsən, mənə deməzsən, xəbərim olmaz. Mən sənsiz nə edərəm?Həmişə dərhal söz arasına söz qatırdı və bu mövzuda olan suallarım cavabsız qalırdı. Kənan 2020-ci ilin oktyabr ayının 22-dəşəhadətə ucalıb və biz bu barədə iki gün sonra xəbər tutduq. Həmin vaxt evdə qaynanam, qaynatam və mən var idim. Onun barəsindəxəbəri üçümüz bir yerdə, bir vaxtda aldıq və bizə Kənanın yaralı olduğunu dedilər. Mən isə buna inanmaq istəyirdim, amma dəqiqələr keçdikcə gördüm ki, Kənanım artıq birdə məni çağırmayacaq. Mən onun məni mehribanlıqla, səmimiyyətlə çağıran məlhəm səsini əbədiyyən itirdim.Onun cənnət qoxuyan nəfəsinin ətrini əbədiyyən itirdim.

**- Müqəddəs, haqq, azadlıq müharibəsində Müzəffər ordumuz mənfur düşmən üzərində qələbə çaldı. Vətən müharibəsində Qələbənin qazanılmasından, Kənanın şəhid olduğu yerlərin azad olmasından sonra siz hansı hissləri keçirdiniz?**

-Bəli, Allahıma şükürlər olsun ki, Ali Baş Komandanımızın rəhbərliyi altındaMüzəffər, rəşadətli, qəhrəman ordumuz mənfur düşmən üzərində qələbə çaldı, düşmənlərimizi məhv etdi, onlara layiq olduqları yeri göstərdi.-Kənanım da daxil olmaqla bütün şəhidlərimizinqanı yerdə qalmadı. Hər bir azərbaycanlı kimi mən də bu zəfərə sevindim. Bir gözümdən yaş,bir gözümdən qan axsa da Kənan kimi vətən oğullarının, qəhrəman qazilərimizin hesabına əldə etdiyimiz bu qələbə sevincini elliklə, hamılıqla birlikdə mən də yaşadım. Və həmin qələbə günü mən Kənanımı yuxuda gördüm. O, mənə dedi ki, Şuşanı azad etdik,biz qalibik və indi hamı məni görməyəgələcək.Bu yuxunu gördüyümdən heç beş dəqiqə keçmədi ki,biz şəhidlər uyuyan məzarlığa getdik. Bütün Azərbaycan xalqı kimi Culfa əhalisi də şəhidlərimiz uyuyan məzarlıqda idi. Orada böyük bir izdiham var idi. İnsan axını dənizin təlatümə gəlməsinə bənzəyirdi. Hamı şəhidlərimizin, o cümlədən Kənanımın xatirəsini anmağa, onlara ruhunuz şad olsun, qisasınız alındı, vətən torpağı düşmən tapdağından azad edildi, mənfur düşmən məğ-



lub oldu, cənnətinizdə rahat uyuyun deməyə gəlmişdi. Onda o qədər qürurlandım ki... Elə bildim, yarımçıq qalan arzularımızı Kənanımla birliklə həyata keçiririk. Hamımız bilirik ki, Uca Allah dərgahında və qəlblərimizdə Şəhidlər ölmür, onlar yalnız məkanını və dünyasını cismən dəyişir, onlar ruhən hər şeyi görürlər. Mən özüm Kənanımın şəhadətindən sonra buna dəfələrlə şahid olmuşam. Təsəlli yerimiz onların şəhadəti, ordumuzun qalibiyyətidir.

**- Yenidən Şəhidimizi görmək imkanınız olsaydı, ona nə deyərdiniz, yaxud daona hansı sualı verərdiniz?**

- Yenidən Kənanımı görmək imkanım olsaydı, mən ona deyərdim ki,mənim dünyam səninlə aydınlanıb, sən gedəndən gündüzlərim də gecə olub. Ona deyərdim ki, sənsiz verdiyim ağır imtahanlardan, sınaqlardan alnıaçıq keçmək nəsibim olsun ki, sənin cənnətinə yaraşım.Birdə deyərdim ki,biləsən ki, sənicanımdan çox sevirdim, sevirəm və əbədiyyən belə olacaq.Kənanımı yenidən görməyi düşünəndə belə dünyam aydınlanır, qaranlıq dünyama nur saçılır və duam odur ki, biz bu fani dünyada bütöv ailə ola bilmədik. Heç olmazsa,uca Allahım bizi



haqq dünyasında tam bir ailə etsin. Kənanım, Yusifim və mən tam ailə olaq, orada birləşək.İnşəAllah, indi yalnız bu arzu, bu istək, bu planlarımla yaşayıram. Ya qismət.Amin.

**- Son olaraq şəhidailələrinə, şəhid xanımlarına nə demək istərdiniz?**

-Son olaraq mən bir şəhid xanımı, bir vətən qəhrəmanının, vətən fədaisinin xanımı olaraq onu deyə bilərəm ki, biz hamımız bir ailəyik. Necə ki həyat yoldaşlarımız, yarlarımız, oğullarımız, qardaşlarımız Allah tərəfindən sevilərək şəhadət üçün seçiliblərsə, eləcədə bizlər Allah tərəfindən seçilmiş güclü, cəsur qadınlar, xanımlar, atalarıq, analar, övladlarıq... Ona görə də hər zaman hər birimizbaşı dik, alnıaçıq, şux yeriməliyik. Bilməliyik ki, bu uca məqam hər insana nəsib olmur. İnşəAllah, şəhidlərimiz ən ali məqama, İmam Hüseyn şəhadətinə ucalıblar, bu şəhidlik məqamına nail olublar. Bizlərə isə xanım Zeynəbin səbrindən, inşəAllah, Allahım nəsib edər. Allah hamımıza yar və yardımçı olsun ki, şəhidlərimizi hər yerdə, hər anda, hər məqamdatanıda bilək. Şəhidlər vurulanda yox, unudulanda ölürlər. Biz Şəhidlərimizin unudulmasına yol verməməliyik və yol verməyəcəyik. Təmənna edirəm ki, uca Allahım bunun üçün zəruri olan hər şeyi bizə versin. İnşəAllah. Amin!

Aysel xanım, müsahibəyə görə sizə dərin minnətdarlığımı bildirirəm. Qəhrəman həyat yoldaşınız olan şəhidimiz Kənan Quliyevə, sizə və sizin ailənizə nə qədər təşəkkür etsək, azdır.Sizlərə minnətdar olmaq ömür boyu bizim və gələcək nəsillərin borcudur. Təbii ki, təşəkkür etməklə, minnətdar olmaqla bu borcu ödəmək o qədər çətindir ki, bu borc bir dəryadırsa, təşəkkür etmək, minnətdar olmaqo dəryanın zərrəsi də deyil. Biz o 27 sentyabr günündən - hamımızın qəlbimizə, fikrimizə həkk olunan o anım günündən sonra sizə ömür boyu elə borclu olduq ki, bu borc ancaq bir can fəda etməklə ödənilə bilər. Siz öz analıq sevincinizidoyunca yaşaya bilmədiniz, lakin sizin haqqınız bu xalqın gözündə ana haqqı qədər böyük və ödənilməzdir. Hesab edirəm ki, necə ki dünya durduqca Azərbaycan yaşayacaqdır, Azərbaycan yaşadıqca sizlər də, sizin kimi qəhrəman həyat yoldaşları dayaşayacaqsınız. Sizləri unutsaq, Vətəni unudarıq. Çünki siz - Şəhidlər və Şəhid ailələri, Qazilər və Qazi ailələri özünüz özlüyünüzdə bir Vətənsiniz və uğrunda öz həyatınızdan keçdiyiniz bu Vətən qədər əziz və doğmasınız. Elə də olacaqsınız.

Allah bütün Şəhidlərimizə rəhmət eləsin, Qazilərimizə şəfa versin, müqəddəs vətənimizi və şanlı ordumuzu, millətimizi, qəhrəman xalqımızı qorusun! Amin! Həqiqətən də Şəhidlər ölməz, Vətən bölünməz!



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***